2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Ramiz İbrahimovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 noyabr 2014-cü il tarixli, 09 saylı müraciət üzrə

# RƏYİ

Bakı şəhəri 25 noyabr 2014-cü il

Mən, ekspert qrupunun üzvü Ramiz İbrahimov 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran – Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Vuqar Namiq oğlunun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarının əsasız olması və pozulmuş hüquqlarının bərpa edilərək müvafiq qərar qəbul edilməsinə dair Mərkəzi Seçki Komissiyasına daxil olmuş 24 noyabr 2014-cü il tarixli 09 saylı müraciətini araşdıraraq müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci və 112-1-ci maddələrinin və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Mərkəzi Seçki Komissiyasının 12 avqust 2008-ci il tarixli, 11/53-2 saylı qərarı ilə təsdiq edilmiş (23 iyul 2010-cu il tarixli 15/58-6 saylı və 19 oktyabr 2012-ci il tarixli 5/16 saylı qərarları ilə dəyişikliklər edilmiş) Təlimatın tələblərinə uyğun və nəzərdə tutulan şikayətvermə müddətində verildiyindən icraata qəbul edilmiş və araşdırma aparılmışdır.

V.N.Məmmədov müraciətini onunla əsaslandırılmışdır ki, o, 2014-cü il dekabrın 23-nə təyin edilmiş bələdiyyə seçkilərində 76 saylı Lənkəran – Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzrə namizədliyini öz təşəbbüsü ilə irəli sürmüş, həmin bələdiyyə ərazisində seçicilərin imzasını toplayaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədləri DSK-ya təqdim etmiş, ancaq dairə seçki komissiyasının 20 noyabr 2014-cü il tarixli, 11/30-3 saylı qərarı ilə əsassız olaraq namizədliyinin qeydə alınmasından imtina edilmişdir. Belə ki, imza vərəqəsində olan 50 seçici imzasından 23-ü əsassız olaraq etibarsız hesab edilmişdir.

Dairə seçki komissiyası V.N.Məmmədovun namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, onun tərəfindən təqdim edilmiş imza vərəqəsində olan 50 seçici imzasından 23 seçici imzası etibarsız, 27 seçici imza isə etibarlı hesab edilmişdir. Etibarlı hesab edilən seçici imzalarının sayı namizədin qeydə alınması üçün kifayət etmədiyindən onun namizədliyini qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyasının mübahisələndirilən qərarının çıxarılmasına əsas olmuş, namizədliyin qeydə alınması üçün təqdim edilmiş sənədlər dairə seçki komissiyasından tələb olunaraq müvafiq araşdırma aparılıb rəy verilməsi üçün bələdiyyə seçkiləri ilə bağlı Mərkəzi Seçki Komissiyası nəzdində yaradılmış işçi qrupuna təqdim olunmuşdur.

Müraciət etmiş şəxsə tərəfimdən araşdırılma aparılması barədə məlumat verilmiş, araşdırmada iştirak etmək hüququnun olması bildirilmiş və araşdırmada iştirak etməyə dəvət edilmişdir. O, bildirmişdir ki, müraciətini müdafiə edir, imza vərəqələrində olan seçici imzaları şəxsən özü tərəfindən toplanılmış, imza edən seçicilərin hər biri imza vərəqəsində şəxsən özü imza etmiş, imzaların etibarsız hesab edilməsi barədə mütəxəssis tərəfindən verilmiş rəy əsassızdır. Ona görə də namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarının ləğv edilməsini və həmin bələdiyyə üzrə namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədliyin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 24 noyabr 2014-cü il tarixli rəylər və protokoldan görünür ki, bələdiyyə üzvlüyünə namizəd Məmmədov Vüqar Namik oğlunun namizədliyinin qeydə alınması üçün təqdim etdiyi imza vərəqəsində olan seçici imzaları Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun toplanılmışdır. Namizəd tərəfindən toplanılmış 50 seçici imzası etibarlı hesab edilmişdir. Seçki Məcəlləsinin 215.1.5-ci maddəsinə əsasən əhalisi 4.999-dan çox, 9.999-dan az olan ərazidə bələdiyyə üzvlüyünə namizəd kimi qeydə alınmaq üçün namizədliyi irəli sürülmüş hər bir vətəndaş 30 seçici imzası toplamalıdır. Müvafiq icra hakimiyyəti orqanının təqdim etdiyi arayışla təsdiq olunur ki, Mamusta bələdiyyəsinin əhatə etdiyi ərazidə əhalinin sayı Seçki Məcəlləsinin yuxarıda qeyd edilən maddəsi ilə müəyyən edilmiş say həddindədir. Namizədin təqdim etdiyi imza vərəqəsində etibarlı hesab edilən imzaların sayı həmin bələdiyyə üzrə namizədliyin qeydə alınması üçün kifayət etdiyindən onun namizədliyinin qeydə alınması üçün hüquqi əsaslar yaranmışdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 57.4-cü maddəsinə əsasən seçici imza vərəqəsində imza edərkən soyadını, adını, atasının adını, doğum tarixini, yaşayış yerinin ünvanını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını və nömrəsini, verilmə tarixini, imza etdiyi tarixi göstərir. İmza edən seçicilər barəsində qeyd edilməsi zəruri hesab olunan məlumatlar imza toplayan şəxs tərəfindən imza vərəqələrinə daxil edilə bilər. Göstərilən məlumatlar əllə yazılır və onların yayılmamasına təminat verilir.

Seçki Məcəlləsinin 59-cü maddəsinə əsasən imza vərəqələri yoxlanılarkən eyni adamın bir neçə imzası aşkar edilərsə, yalnız bir imza etibarlı, digər imzalar isə qeyri-düzgün sayılır. Həmçinin seçki komissiyasının işinə cəlb edilmiş ekspertin rəyi əsasında seçki hüququ olmayan və məlumatları qeyri-düzgün göstərilən seçicilərin imzaları, namizəd irəli sürülməsi haqqında müvafiq seçki komissiyasına bildiriş göndərilənədək imza vərəqələrinə daxil edilmiş seçici imzaları, Seçki Məcəlləsinin 57.1-ci maddəsinin tələblərinin pozulması ilə əlaqədar etibarsız sayılmış imzalar, müxtəlif şəxslərin adından bir şəxs tərəfindən və ya bir şəxsin adından müxtəlif şəxslər tərəfindən qoyulmuş imzalar, imza vərəqəsinə əl yazısı ilə qoyulmayan və ya karandaşla qoyulan imzalar etibarsız hesab edilir.

Seçki Məcəlləsinin 60.2-ci maddəsində namizədliyin qeydə alınmasından imtina edilməsinin əsasları göstərilmişdir. Dairə seçki komissiyası namizədliyin qeydə alınmasından imtinaya dair qərar qəbul edərkən həmin maddənin tələblərini nəzərə almamışdır.

Tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma ilə dairə seçki komissiyasının qərarının ləğv edilməsi və şikayətin təmin edilməsi üçün hüquqi əsasların olması müəyyən edilmişdir.

Göstərilənlərə əsasən müraciət əsaslı olduğundan təmin edilməli, 76 saylı Lənkəran – Astara seçki dairəsinin dairə seçki komissiyasının V.N.Məmmədovun namizədliyinin Mamusta bələdiyyəsi üzvlüyünə qeydə alınmasından imtina edilməsi barədə 20 noyabr 2014-cü il tarixli 11/30-3 saylı qərarı ləğv edilməli, onun həmin bələdiyyə üzvlüyünə namizədliyi qeydə alınmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 215.1.5-ci, 216.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1-7-ci bəndlərinə əsasən **rəyə gəldim:**

1. 76 saylı Lənkəran – Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Vüqar Namiq oğlunun 24 noyabr 2014-cü il tarixli 09 saylı müraciəti təmin edilsin, onun namizədliyinin qeydə

alınmasından imtinaya dair dairə seçki komissiyasının 20 noyabr 2014-cü il tarixli 11/30-3 saylı qərarı ləğv edilsin.

2. 76 saylı Lənkəran – Astara seçki dairəsindən Mamusta bələdiyyəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Məmmədov Vüqar Namiq oğlunun bələdiyyə üzvlüyünə namizədliyi qeydə alınsın.

3. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Ramiz İbrahimov